Suraxanı rayonu: İnkişaf böyük uğurların təməlinə çevrilir

Bu gün respublikamızın şəhər və kəndlərində müşahidə edilən abadlıq-quruculuq işləri Suraxanıda da özünü qabarıq şəkildə büruzə verir. Mövcud potensialın səmərəli reallaşdırılması, əmək ehtiyatlarının və digər resursların konkret məqsədlərə yönəldilməsi, ən başlıcası, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Dövlət proqramlarından, fərman və sərəncamlarından irəli gələn vəzifələrin böyük əzm və bacarıqla həyata keçirilməsi rayonun uğurlarını şərtləndirən əsas məqamlardır. Son illər Suraxanı rayonunun sosial-iqtisadi həyatında çox böyük müsbət dəyişikliklər baş vermişdir. Ölkəmizdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Dövlət proqramları rayonda da uğurla icra olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarının birində demişdir: "Dövlət məmuru xalqın xidmətçisidir. Xalqın birinci xidmətçisi mənəm və bütün dövlət məmurları belə işləməlidir". Odur ki, hər bir dövlət məmuru öz vəzifə borcunu bilməli və anlamalıdır ki, insanlarla daim ünsiyyətdə olmalı, onları narahat edən problemləri həll etməli, rayonun inkişafı üçün var qüvvəsi ilə çalışmalıdır.

Mübaliğəsiz demək olar ki, bu istiqamətdə Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasovun rayonun inkişafı üçün uğurlu nəticələr əldə etmək istiqamətində apardığı məqsədyönlü siyasəti və planlı işi örnək ola bilər. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin təbirincə desək, **"əsas amal-dövlət məmuru öz xalqına xidmət etməli, ona etimad göstərilən vəzifəni layiqincə doğrultmaqdır".**

Rayonun rəhbəri həmişə konkret işə üstünlük verir və verdiyi tapşırığa daim nəzarət edir. Bu iş prinsipi isə onun şəxsi təcrübəsindən qaynaqlanır. Rayon icra hakimiyyəti başçısının böyük təcrübə əldə etməsi, insanlarla sıx ünsiyyəti bu gün öz bəhrəsini verir. Rayonun sosial-iqtisadi inkişafına həsr olunmuş hesabat yığıncaqları, eləcə də müxtəlif tədbirlərdə israrla müxtəlif sahələrin cavabdeh şəxslərinin qarşısında qoyduğu, qaldırdığı məsələlərin həllini, nəticəsini tələb etməsi öz işinə məsuliyyətlə yanaşdığını, vəzifə borcunu layiqincə yerinə yetirdiyini aydın nəzərə çarpdırır. Dövlət başçısı, ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, böyük idarəçilik təcrübəsinə malik cənab İlham Əliyev yerli icra orqanları rəhbərlərinin öz vəzifə borclarını yerinə yetirməli olduqlarını, onların insanlara arxa, dayaq durmalarını dəfələrlə qeyd etdiyini bildirərək demişdir: "Hər bir icra başçısını mən vəzifəyə təyin edərkən, onu qəbul edərkən ona bir neçə əsas istiqaməti göstərirəm: inkişaf, quruculuq, səmərəli iş, təvazökarlıq və insanlara xidmət".

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin bu sözlərini, fikirlərini işində rəhbər tutan rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov uzərinə düşən vəzifənin məsuliyyətini düzgün qiymətləndirməklə öz fəaliyyətini dövlət başçısının yürütdüyü çevik və səmərəli inkişaf strategiyasının mahiyyətinə uyğun qurmağa nail olmuşdur.

Xüsusilə, rayonun həyatında böyük uğurlar əldə edilmiş, uzun müddət yığılıb qalmış problemlər həllini tapmış, hazırda isə bu tendensiya davam etməkdədir. Odur ki, görülən işlər konkret və ünvanlıdır. Bu gün dövlət siyasətinin mərkəzində dayanan Azərbaycan vətəndaşının həyat şəraitini yaxşılaşdırmağa, onların sosial-məişət problemlərinin həllində insanlarla sıx ünsiyyətə böyük önəm verilir.

Rayonda ötən müddət ərzində digər sahələrlə yanaşı, abadlıq-quruculuq işləri də geniş vüsət almış, küçələr, parklar, məhəllələr gözəlliyə qərq olmuş, insanların asudə vaxtlarının səmərəli keçməsi üçün hər cür şərait yaradılmışdır. Ölkəmizdə qazanılmış bütün nailiyyətlərdə, şubhəsiz ki, şəhər və rayonların, kənd və qəsəbələrin ayrılıqda özünəməxsus payı vardır. Bu yüksəlişə paytaxtın Suraxanı rayonu da öz layiqli töhfələrini verməkdədir. Rayon rəhbərliyi dövlət başçısı cənab İlham Əliyevin tapşırıq və tövsiyələrini fəaliyyət proqramı kimi götürmüş, qarşıya qoyulmuş sosial-iqtisadi vəzifələri, o cümlədən quruculuq-abadlıq layihələrini həyata keçirmək istiqamətində böyük addımlar atmışdır. Görülən işlərin fonunda inamla demək olar ki, Suraxanı rayonu, sözün əsl mənasında, işıqlı yoldadır və rayonun gələcək uğurlu inkişaf perspektivlərinə nikbinlik yaradır. Dövlət başçısının birbaşa təşəbbüsü və himayəsi sayəsində son illər rayonda mühüm obyektlərin inşası uğurla başa çatdırılmış, bəzilərində isə işlər davam etdirilir. **Əldə olunan nailiyyətlər sakinlərdə dövlət və dövlətçiliyə, möhtərəm Prezidentimizə, rayon rəhbərliyinə olan inamı, etimadı daha da artırır.**

Bu gün Suraxanı rayonu inkişafın yüksək mərhələsindədir. Ən əsas cəhət odur ki, bu rayonda sağlam mənəvi-psixoloji mühit mövcuddur. Rayon rəhbərliyinin tələbkarlığı, idarəçilik təcrübəsi bu rayonun uğurlu gələcəyindən xəbər verir. Odur ki, rayon sakinləri buradakı inkişafı, yüksəlişi ölkə Prezidenti cənab İlham Əliyevin gündəlik qayğısı ilə bağlayır, ölkə rəhbərinin apardığı daxili və xarici siyasət xəttini ürəkdən bəyənirlər.

Suraxanıda son illər ərzində bir sıra sistemli, kompleks xarakterli layihələr hazırlanaraq uğurla reallaşdırılıb. Yaşayış məntəqələrinin təbii qaza, suya, elektrik enerjisinə olan tələbatının ödənilməsi, küçə və məhəllədaxili işıqlandırma sistemlərinin qurulması, ictimai nəqliyyatın fasiləsiz işləməsi, sosial təyinatlı obyektlərin tikintisi və bərpası, müasir avadanlıqla təchiz edilməsi ilə bağlı xeyli iş görülüb. Son illərdə ölkə başçısı tərəfindən ardıcıl və sistemli şəkildə aparılan məqsədyönlü islahatlar Azərbaycanın bütün regionlarında, o cümlədən Suraxanı rayonunda da iqtisadiyyatın dinamik surətdə inkişafı, insanların rifahının yaxşılaşması, sabitliyin möhkəmlənməsi, yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması ilə müşayiət olunub. Suraxanı rayonunda da yeni daimi iş yerlərinin açılması istiqamətində işlər uğurla davam etdirilir. **Son 14 il ərzində rayonda 32015 yeni daimi iş yeri açılmışdır.**

Rayon tikinti-quruculuq işlərinin intensiv getdiyi, iri sənaye potensialının mərkəzləşdiyi məkandır. Sürətlə abadlaşan Suraxanı bu gün sanki yenidən qurulur. Cari ilin ötən dövrü ərzində öz əhəmiyyətinə görə respublika səviyyəli mühüm layihələr həyata keçirilib və ölkəmizdə gedən artım tempinə uyğun şəkildə bir sıra nailiyyətlər əldə edilib.

2017-ci ilin yanvar-sentyabr aylarında Suraxanı rayonunda sənaye məhsulunun istehsalı 229,9 milyon manat, tikinti-quraşdırma işləri 24,5 milyon manat, nəqliyyat xidmətləri 11,8 milyon manat, əsas kapitala yönəldilən investisiyalar 26,7 milyon manat, kənd təsərrüfatı 7,0 milyon manat, pərakəndə ticarət dövriyyəsi 591,9 milyon manat, orta aylıq əməkhaqqı 574,1 manat təşkil etmiş, əhaliyə 163,2 milyon manat məbləğində pullu xidmətlər göstərilmiş, 3775 yeni iş yeri açılmışdır.

Cari ildə rayon infrastrukturunun yenidənqurulması davam etdirilmiş, 18,3 km yeni qaz kəməri çəkilmiş və ya əsaslı təmir olunmuş, müxtəlif diametrli borularla 9888,0 poqonmetr su və 832,0 poqonmetr kanalizasiya xətləri çəkilmiş, 4720,0 poqonmetr qəzalı su xətti dəyişdirilmiş, yüksəkgərginlikli elektrik yarımstansiyası tikilmiş, biri təmir olunmuş, Hövsan qəsəbəsində yüksəkgərginlikli elektrik yarımstansiyasının tikintisi davam etdirilmiş, 1743,0 poqonmetr. istilik xətləri dəyişdirilmişdir.

Müxtəlif mənbələr hesabına rayonda küçələrə və məhəllədaxili ərazilərə 250,0 min kv.m. asfalt örtüyü salınmış, Qaraçuxur qəsəbəsində Etibar Bəkirli küçəsinin 2,0 kilometr hissəsi yenidən qurulmuş, uzunluğu 12,0 kilometr olan Zığ-Əmircan-Yeni Suraxanı avtomobil yolunun 3,0 kilometrlik hissəsi uzunluğu 6,8 kilometr olan Zığ-Hövsan avtomobil yolu yenidən qurulur. Zığ-Hövsan avtomobil yolunun yenidənqurulması layihəsi çərçivəsində Zığ qəsəbəsi-Heydər Əliyev Beynəlxalq Hava Limanı avtomobil yolundan Zığ-Əmircan və yeni qurulan Zığ-Hövsan avtomobil yollarına avtonəqliyyat vasitələrinin rahat daxil olmasını təmin etmək məqsədilə yeni dairə və yol hissəsi də inşa olunur. Yenidən qurulan yolların ətrafının estetik görünüşünün yaxşılaşdırılması məqsədi ilə irimiqyaslı təmir-tikinti, abadlıq işləri aparılır. Yolların kənarında yöndəmsiz vəziyyətdə olan, mövcud tikinti normalarının tələblərinə cavab verməyən, ətraf ərazinin ümumi görünüşünə xələl gətirən yerüstü kommunikasiya xətləri yerin altına salınır, yeraltı kommunikasiya xətləri təmir edilir və ya dəyişdirilir, qalan hissələri nizama salınaraq rənglənir.

"Bakı şəhərində yağış kanalizasiya sisteminin təkmilləşdirilməsi ilə əlaqədar işçi qrupunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamının icrası ilə əlaqədar Suraxanı RİH-də işçi qrup yaradılmış, rayonda yağış, ərimiş qar sularının yığılması təhlükəsi olan avtomobil yolları müəyyənləşdirilmiş və səth sularının kənarlaşdırılması üçün kompleks tədbirlərin görülməsinə dair təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmiş, bu işin təşkilinə köməklik göstərilməsi məqsədi ilə müvafiq avadanlıq alınmışdır.

Rayonda tikinti-quraşdırma işləri davam etdirilmiş, Yeni Günəşli "D" yaşayış sahəsində "Xəzər inşaat XXI əsr" MTK, "AB" yaşayış sahəsində "Atlanta" MTK, "V" yaşayış sahəsində "İB.İN.M-İNŞAAT" MTK, Zığ qəsəbəsində "Şahinlər" MMC, Qaraçuxur qəsəbəsi Y.Eyvazov küçəsində "Elit-R" MTK tərəfindən çoxmərtəbəli yaşayış binalarının inşası, Hövsan qəsəbəsində "Xəyal Adası" yaşayış kompleksinin salınması işləri, Yeni Günəşli "AB" yaşayış sahəsində özəl klinikanın, Qaraçuxur-Əmircan yolunun sol hissəsində "ATEF Şirkətlər Qrupu" MMC tərəfindən yüksəkgərginlikli avadanlıqlar istehsalı zavodunun, Əmircan qəsəbəsində 100 yerlik uşaq bağçasının və Rayon Məhkəməsi üçün yeni inzibati binanın tikintisi işləri davam etdirilir.

Azərbaycan Respublikası vətəndaşlarının yaşayış sahələrinə olan ehtiyacını ödəmək, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq, müasir memarlıq üslubunda ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli binaların tikilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 136s nömrəli 22.02.2017-ci il tarixli sərəncamı ilə Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsinin qərb hissəsində Dövlət Neft Şirkətinin daimi istifadəsində olan 20,0 ha sənaye təyinatlı torpaq sahəsinin kateqoriyası dəyişdirilərək yaşayış məntəqələrinin torpaqları kateqoriyasına keçirməklə **Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin** tabeliyində olan "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamına verilmişdir. Bu günlərdə həmin ərazidə 3200 mənzilli, 12 000 nəfərin yaşaya biləcəyi 7-10 mərtəbəli binalardan ibarət yaşayış kompleksinin, 2100 şagird yerlik 1 məktəb, 280 uşaq yerlik 1 uşaq bağçasının ölkə başçısı tərəfindən təməlinin qoyulması nəzərdə tutulmuşdur.

2017-ci ilin ötən dövrü ərzində Suraxanı Rayon İcra Hakimiyyəti başçısının sərəncamları ilə icraata qəbul edilmiş "2017-ci ildə Suraxanı rayonunda görüləcək işlərin Tədbirlər Planı"na, onun tərkib hissəsi olan "2017-ci ildə Suraxanı rayonunda həyata keçirilməsi nəzərdə tutulmuş yerli Proqramların iş qrafiki"nə uyğun olaraq "Nümunəvi abad məhəllələrin salınması", "Mövcud parkların yenidən qurulması və yeni parkların salınması", "Nümunəvi idman meydançalarının salınması", "Əhalinin bəzi sosial problemlərinin həll olunması", "İctimai xeyir-şər evlərinin əsaslı təmiri və yenilərinin tikintisi" və "Xüsusi layihələr" proqramlarına uyğun olaraq cari ildə bir sıra işlər həyata keçirilmişdir.

3,4 hektara yaxın (33800 kv.metr) sahəni əhatə edən "Neftçilər" parkının əsaslı təmiri "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur.

Parkın xüsusi layihə əsasında əsaslı təmiri bu gün sürətli formada davam etdirilir. Parkın ərazisində ağaclar budanaraq aşma təhlükəsi olan qurumuş ağaclar götürülmüş, suvarma və işıqlandırma layihələri hazırlanmışdır. Hazırda bordüraltı hissələrə armaturlar atılaraq beton tökülür, arakəsmələr karbonat materialı ilə kipləşdirilir və üzərinə atsep və sement qarışığı ilə tamet daşları döşənir. Bu günə qədər 3 min kvadratmetrdən çox sahəyə tamet daşı döşənmiş, 1200 poqonmetr bordür düzülmüşdür. Parkda eyni zamanda yeraltı kommunikasiya xətlərinin keçirilməsi üçün gilzalar yerləşdirilir, qazon salınacaq sahələr torpaq səviyyəsi ilə düzləşdirilir.

"Neftçilər" parkında əhalinin və uşaqların istirahəti üçün hər cür şərait yaradılacaq, yeni oturacaqlar, söhbətgahlar, müxtəlif oyun elementləri quraşdırılacaq, işıqlandırma, ağacları suvarmaq üçün suvarma sistemi quraşdırılacaqdır.

"Neftçilər" parkının 2018-ci ilin ikinci rübündə rayon sakinlərinin istifadəsinə verilməsi nəzərdə tutulmuşdur.

Qaraçuxur qəsəbəsi, Əhməd Mehbalıyev küçəsində ərazinin estetik görünüşünün yaxşılaşdırılması məqsədi ilə RİH tərəfindən hazırlanmış yeni layihələrə əsasən yolun sağ və sol tərəflərində yerləşən qeyri-yaşayış sahələri, fərdi yaşayış evləri və hasarlar abadlaşdırılır. Sözügedən küçədə də çoxsaylı ağacların budanması və quru ağacların kəsilməsi işləri nəzərdə tutulmuşdur.

Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun yaşadığı Əmircan qəsəbəsi, 8/6 saylı binanın divarına onun xatirə lövhəsinin vurulması ilə əlaqədar binanın ətrafında sahələr, Zaur Şərifov küçəsində 4 ədəd yaşayış binasının həyəti abadlaşdırılmış, Elxan Həsənov küçəsində 3 ədəd yaşayış binası təmir edilmişdir.

Ümumilikdə, rayonun qəsəbələrində bu dövr ərzində 20 "Nümunəvi abad məhəllə" salınmış, 8-ci "Veteranlar guşə"si Hövsan qəsəbəsi, Elman Qasımov küçəsində istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən əhalinin məşğulluq səviyyəsinin artırılması məqsədilə işsiz vətəndaşların ödənişli ictimai faydalı işlərə cəlb edilməsi proqramı davam etdirilmişdir.

"Bir bələdiyyə-azı bir layihə" proqramı çərçivəsində Hövsan qəsəbəsində Böyük Vətən Müharibəsində həlak olanların şərəfinə ucaldılmış "1941-1945" abidə kompleksi Hövsan bələdiyyəsi və RİHB-nin Hövsan qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəliyi tərəfindən əsaslı təmir edilmiş, 1150 kvadratmetr ərazi abadlaşdırılmışdır. Əmircan qəsəbəsi, Səttar Bəhlulzadə küçəsində Əmircan bələdiyyəsi tərəfindən 250 kvadratmetr qazon əkilmiş, ağacların və yaşıl çəmənin suvarılması üçün 300 poqonmetr su xətti çəkilmişdir. Bülbülə qəsəbəsində isə kənd qəbiristanlığında yerləşən və sahəsi 350 kvadratmetr olan Şəhidlər Xiyabanı sakinlərin və xeyriyyəçilərin iştirakı ilə əsaslı şəkildə yenidən qurulmuş, 12 şəhidin xatirəsi əbədiləşdirilmişdir.

Cari ildə də ekoloji məsələlərin həllinə diqqət artırılmış, Zığ və Bülbülə göllərinin ekoloji vəziyyətlərinin yaxşılaşdırılması işləri davam etdirilmiş, rayonda operator şirkətlər tərəfindən ümumi sahəsi 1,5 hektar olan 45 gölməçə müxtəlif növ tullantılardan təmizlənmiş, lay suları və neftlə çirklənmiş 9,8 hektar torpaq sahəsi təmizlənərək texniki rekultivasiya olunmuş, 33 ədəd quyunun işçi meydançası və quyuətrafı sahələri neft tullantılarından təmizlənmiş, həmin ərazilərdə yaşıllıq və ağaclar əkilmişdir.

Rayon icra hakimiyyətinin təkidlə keçirilmiş iməciliklərdə rayonda cari ildə 6700 ədəd ağac əkilmişdir. Əkilmiş yaşıllıqların vaxtında suvarılmasının vacibliyini nəzərə alaraq rayon icra hakimiyyəti başçısının sərəncamı ilə rayonda mövcud olan yaşıllıq sahələri rayonun ayrı-ayrı idarə və müəssisələrinə təhkim edilmişdir.

Fəaliyyətə başladığı gündən rayonun ideoloji mərkəzinə çevrilmiş Suraxanı Rayonu Heydər Əliyev Mərkəzinin əsas funksiyası Azərbaycan xalqının ümummilli lideri, Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin və Azərbaycançılıq məfkurəsinin, zəngin irsinin dərindən öyrənilməsi, tədqiqi, geniş təbliği, qorunub saxlanılması, hərtərəfli inkişaf etdirilməsi və tətbiqini təmin etməkdir. Rayon sakinləri, rayona gələn yerli və xarici qonaqlar, mərkəzi icra hakimiyyəti orqanlarının nümayəndələri, Milli Məclisin deputatları böyük maraqla Mərkəzin fəaliyyəti ilə tanış olurlar. İndiyədək Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə 76 minə yaxın yerli və xarici ziyarətçi tanış olmuş, Mərkəzin Elektron kitabxanasının xidmətindən 16 mindən artıq istifadəçi faydalanmışdır. Mərkəzdə 2017-ci in ötən dövrü ərzində 18 ümumrayon tədbiri, ümumilikdə isə müxtəlif mərkəzi icra hakimiyyəti orqanları, ali təhsil müəssisələri, elmi institutlar ilə birgə 2009-cu ildən bəri 224 tədbir keçirilmişdir. Suraxanı Rayonu Heydər Əliyev Mərkəzi ilə digər ziyarətçilərlə yanaşı, rayon məktəbliləri də davamlı tanış olur, Mərkəzin imkanlarından faydalanırlar.

Azərbaycan Respublikası Prezident Administrasiyasının tapşırığına uyğun olaraq müasir Azərbaycan tarixinin ümumtəhsil məktəblərində daha səmərəli öyrənilməsi məqsədi ilə Təhsil Nazirliyi tərəfindən müəyyən edilmiş **"Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusu və memarıdır" və "Ümummilli lider Heydər Əliyevin ideyaları müasir Azərbaycanın sosial-iqtisadi inkişafının təminatçısıdır"** mövzuları üzrə Suraxanı Rayonu Heydər Əliyev Mərkəzində və Yeni Azərbaycan Partiyasının Suraxanı Rayon Təşkilatında 11-ci sinif şagirdlərinə dərslər tədris olunmuş, bunun üçün nüfuzlu müəllimlər və tarixçilər seçilmişdir. Suraxanı Rayon İcra Hakimiyyətinin və Suraxanı Rayonu Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Mərkəzdə eyni zamanda ayda bir dəfə tədris olunmaqla 2016-2017-ci tədris ilinin sonuna qədər **"Heydər Əliyev və müasir Azərbaycan tarixi"** mövzusunda 9-11-ci sinif şagirdlərinə açıq dərs keçirilmiş, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94 illiyi ərəfəsində keçirilən açıq dərslərə yekun vurulmuş, fərqlənən müəllimlər və şagirdlər mükafatlandırılmışlar.

2017-2018-ci tədris ilində yenidən açıq dərslərin tədrisinə başlanılmışdır. Açıq dərslər tədris ilinin sonuna qədər davam etdiriləcək və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi ərəfəsində keçirilən açıq dərslərə yekun vurulacaq, fərqlənən müəllimlər və şagirdlər mükafatlandırılacaqlar.

Fəaliyyətə başladığı gündən Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliği istiqamətində müxtəlif layihələr reallaşdıran Suraxanı Rayonu Heydər Əliyev Mərkəzi sentyabr ayından daha bir layihəni reallaşdırmağa başlamışdır. Belə ki, Suraxanı Rayonu Heydər Əliyev Mərkəzi, AMEA-nın Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu və Suraxanı Rayon İcra Hakimiyyəti arasında 14 sentyabr 2017-ci il tarixdə əməkdaşlıq müqaviləsi imzalanmışdır. Razılaşmaya əsasən AMEA-nın Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu rayon məktəblərinin 10-cu sinfində təhsil alan və gələcəkdə I qrup ixtisaslarını seçən, xüsusi istedadı ilə fərqlənən və aztəminatlı ailələrdən olan 15 nəfər şagirdin 2017-ci il sentyabrın 15-dən 2 il müddətində institutun alimləri tərəfindən kimya fənnindən hazırlaşdırmağa başlamışlar. Qarşıdakı 2 il ərzində İnstitutun tanınmış alimləri ilə görüşlər təşkil olunacaq və alimlər şagirdlərə məharət dərsləri keçəcəklər. Ayda 1 dəfə şagirdlərin institutun laboratoriyalarında görülən işlərlə tanışlığı təşkil ediləcək. Hər rübdə bir dəfə institut alimləri tərəfindən hazırlıq səviyyəsinin yoxlanılması məqsədi ilə şagirdlər üçün sınaq testləri keçiriləcək.

Azərbaycan Respublikası Prezidentinin 2017-cı il fevralın 15-dən mayın 1-dək bütün ölkə vətəndaşlarının pulsuz tibbi müayinədən keçirilməsi ilə bağlı tapşırığı rayonda yüksək səviyyədə icra olunmuşdur. Rayon icra hakimiyyəti başçısının sərəncamı ilə komissiya yaradılmış, rayon ərazisində yerləşən müəssisə və idarələrin kollektivlərinin tibbi müayinədən keçmə qrafiki tərtib olunmuş, rayonda 153 min 068 nəfər vətəndaş və 138 kollektiv tibbi müayinədən keçmiş, bu da tibbi müayinədən keçməsi nəzərdə tutulanların 87,24%-ni təşkil etmişdir.

Həmçinin, Prezident cənab İlham Əliyevin tövsiyəsinə əsasən Azərbaycan Respublikası Prezident Administrasiyasının təşkilatçılığı ilə 2014-cü il avqustun 1-dən şəhər və rayon icra hakimiyyətləri tərəfindən 9-11-ci sinif şagirdləri üçün "Ölkəmizi tanıyaq" devizi altında təşkil olunan maarifləndirici tur-aksiyaların keçirilməsi gözəl ənənə halı almışdır. Ötən 4 il ərzində 7 istiqamət üzrə 7 tur-aksiya təşkil edilmişdir. Layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, ölkə Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi altında respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Cari ilin mart ayının 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərindəki yataqxanalarda müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin problemlərinin həlli ilə bağlı müşavirə keçirilmiş, aidiyyəti qurumlara tapşırıqlar verilmiş, bununla bağlı 16 mart tarixdə rayon icra hakimiyyətində verilən tapşırıqlar geniş müzakirə olunmuş, konkret tədbirlər müəyyənləşdirilmiş və bir çox işlər görülmüşdür. Belə ki, məcburi köçkün ailələrinin məskunlaşdığı Hövsan qəsəbəsi Hafiz Quliyev küçəsi 22 saylı yataqxananın və keçmiş "Gilavar" uşaq bağçasının, Bülbülə qəsəbəsi, Samir Əliyev küçəsi 149 ünvanda "Azərtunel" MMC-yə məxsus yataqxananın dam örtükləri təmir olunmuş, Zığ qəsəbə sakini məcburi köçkün **Şükürov Şəkur Zakir oğlunun** yanmış fərdi yaşayış evi rayon icra hakimiyyəti və Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən təmir olunmuş, RİH tərəfindən mətbəx mebeli, yataq və qonaq dəsti ilə təmin edilmiş, rayon ərazisində kompakt məskunlaşan 426 məcburi köçkün ailəsi fərdi elektrik sayğacı ilə təmin olunmuş və digər işlər görülmüşdür.

Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 13 min 648 nəfər iştirak edib. Bu il noyabr ayının 11-14 və 16-19 tarixlərini əhatə edən növbəti 8-ci tur-aksiyada isə 4 istiqamət üzrə 78 şəhər və rayondan 3213 nəfər 9-11-ci sinif şagirdi iştirak edir. Bununla da, "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı, ümumilikdə, 17 minə çatır. Onlardan 299 nəfəri Suraxanı məktəbliləridir.

Cari ilin 23-26 mart tarixlərində 27 Suraxanı rayonunun nümunəvi şagirdi Naxçıvan Muxtar Respublikasına,16-19 noyabr tarixlərində isə 40 nümunəvi şagirdi bu tur-aksiyada Gəncə-Şəmkir-Göygöl istiqamətində səfər etmişlər.

Naxçıvan Muxtar Respublikasına səfər edən məktəblilər ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü haqqında ətraflı məlumat almış, Naxçıvanda bu günədək qorunub saxlanılan Möminəxatun, Nuh Peyğəmbər, Qarabağlar türbələri, "Əshabi-Kəhf" ziyarətgahı və digər qədim abidələr, M.T.Sidqinin, M.S.Ordubadinin və Y.Məmmədəliyevin ev-muzeyləri ilə tanış olmuşlar. Gəncə-Şəmkir-Göygöl istiqamətində səfər edən məktəblilər isə Nizami yurdu olan Gəncənin, Şəmkirin, Göygölün yeni xəritəsində öz əksini tapan müasir sənaye müəssisələri, turizm və sosial obyektləri, yaraşıqlı prospektləri, park və xiyabanları, sosial-iqtisadi və mədəni həyatı, Gəncə şəhərinin tarixi məkanları - Cavadxan məqbərəsi, Cümə məscidi, Şah Abbas məscidi, Çökək hamamı, Xan bağı, Qədim Qala divarları, "İmamzadə" kompleksi, Comərd Qəssab türbəsi, Nizami Gəncəvi məqbərəsi ilə tanış olmuşlar. Həmin yerlərlə tanışlıq məktəblilərin yaddaşlarında silinməyən bir iz qoymuşdur. Bu tur-aksiyada 18 və 25 mart tarixlərdə Bakı şəhərində səfərdə olan Naxçıvan məktəbliləri Suraxanı rayonuna gələrək "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu ilə tanış olmuş, məktəblilər rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Dövlət qoruğunda təntənəli qarşılanmış və yola salınmışlar.

2017-2018-ci dərs ilinə ciddi uğurlarla gələn Azərbaycan təhsili üçün ötən dərs ili bir sıra mühüm hadisələr, islahatyönümlü tədbirlərlə əlamətdar olub. Məzunlarımız Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında ötən illərə nisbətən daha yaxşı nəticə göstəriblər. Ali məktəblərə qəbul olunmaq üçün sənəd verən 1578 məzundan 1111 nəfəri tələbə adını qazanmışdır. Bu da sənəd verən məzunların 70,4 faizini təşkil edir. Ötən il isə bu göstərici 62,8 faiz olmuşdur. Abituriyentlərdən 78 nəfəri 600-dən yuxarı, onlardan 29 nəfəri isə 650-dən çox bal toplamışdır. 278 nömrəli tam orta məktəbin məzunu Pərvin Əhmədova ən yüksək nəticə göstərərək 700 bal toplamışdır. 6 məzun Prezident təqaüdçüsü adına layiq görülmüşdür. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanlarında 76, 87, 104, 114, 141, 146, 270, 275, 278, 279, 281, 282, 316, 318 №-li tam orta məktəblərin və XDTG məzunları daha yüksək nəticələr göstərmişdir.

2017-ci ilin ötən dövrü ərzində Suraxanı Rayon Gənclər və İdman İdarəsi tərəfindən aidiyyəti Dövlət proqramlarının icrası, Dövlət İdman Siyasətinin həyata keçirilməsi, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, asudə vaxtının səmərəli təşkili, sağlam həyat tərzinin təbliği məqsədi ilə, ümumilikdə, 173 tədbir və idman yarışı keçirilmiş, bu tədbirlərdə 29193 nəfər gənc, yeniyetmə və idmançı iştirak etmişdir. Yeniyetmə və gənclərin hərtərəfli inkişafı, onların idmanla səmərəli məşğul olması üçün rayon ərazisində "Hövsan" Olimpiya İdman Kompleksi, "Neftçi" İdman klubu İctimai birliyi, Uşaq, Gənclər İdman məktəbi, 1 şahmat klubu və müxtəlif döyüş növləri üzrə 17 idman klubu 12 federasiyanın nümayəndəliyi fəaliyyət göstərir.

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na salınmış rayonun Əmircan qəsəbəsində bir futbol meydanının və müasir tipli idman zalının, Yeni Suraxanı qəsəbəsində bir futbol meydanının, Qaraçuxur qəsəbəsində bir müasir tipli idman zalının, Yeni Günəşli yaşayış sahəsində bir futbol meydanının və şahmat məktəbinin tikintisi başa çatmaq üzrədir.

Ötən dövr ərzində rayonda vətəndaşların müraciətlərinə, onların problemlərinin həllinə diqqət artırılmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına uyğun olaraq 5 yanvar 2017-ci il tarixdən RİH-ə daxil olan müraciətlərin elektron informasiya sistemi vasitəsi ilə qeydiyyatının aparılmasına, dövriyyəsinin təmin olunmasına, icrasına nəzarət edilməsinə və təhlilinin aparılmasına başlanılmışdır.

Suraxanı RİH-in internet saytı, elektron poçt ünvanı, facebook, instagram, twitter səhifələri, "Qaynar xətt" telefonu fasiləsiz fəaliyyət göstərmiş, yerlərdə quraşdırılmış "Şikayət və təkliflər" səyyar poçt qutularından geniş istifadə edilmiş, elektron poçt ünvanına daxil olmuş 194 elektron məktub cavablandırılmışdır.

Bir sözlə, rayonda əldə olunan nailiyyətlər, qazanılan uğurlar sakinlərdə dövlət və dövlətçiliyə, möhtərəm Prezidentimiz cənab İlham Əliyevə, rayon rəhbərliyinə olan inamı, etimadı daha da artırır.

Müşfiq MİRZƏ,
"Respublika".